

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

*XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR*

# LERİK

№ 05 (5579) ✹ 1 May 2017-ci il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik


# ŞURANIN GENİŞ İCLASI KEÇİRİLDİ



**Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri, gənclər və ictimaiyyətin nümayəndələrinin iştirak ilə "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn vəzifələr və 2017-ci ilin birinci rübündə Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr" barədə Şuranın geniş iclası keçirildi.**

Şura iclasını giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov bildirdi ki, aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda ötən dövr ərzində ölkə iqtisadiyyatında əldə olunmuş nəticələr geniş müzakirə edildi. Əminliklə demək olar ki, keçən ilin sonlarında 2017-ci ilin ölkəmizin iqtisadiyyatında dönüş ili olacağına dair verilən bəyanatlar son üç ay ərzində öz təsdiqini tapdı.



Görülən işlərin nəticəsi özünü çox gözlətmədi. Biz artıq cari ili çəkinmədən iqtisadi inkişafımızda yeni mərhələnin başlanğıc ili kimi dəyərləndirə bilərik. Bu il ölkə iqtisadiyyatının qeyri-neft sektorunda ciddi dəyişikliklərin baş verəcəyi heç kimdə şübhə doğurmur. Ötən üç ay ərzində real sektorda ixracın həcminin belə kəskin artmasını hökumətin son il yarım ərzində bu sahənin inkişafı istiqamətində atdığı qətiyyətli addımların real nəticəsi kimi dəyərləndirmək lazımdır.

Sonra natiq ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi islahatların rayonumuzun da sosial-iqtisadi inkişafına ciddi təsir göstərdiyini qeyd etdi.

Rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov geniş məruzə ilə çıxış etdi.

Məruzə ətrafında ƏƏSMN yanında DSMF Lerik rayon şöbəsinin müdiri Malik Mirzəyev, rayon telekommunikasiya qovşağının rəisi Vəligulla Alışov, rayon elektrik şəbəkəsinin rəisi Səhrab Həsənov çıxış edərək rəhbərlik etdikləri sahələr üzrə görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər

Şura iclasına yekun vuran Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov qarşıya qoyulmuş vəzifələrlə bağlı aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Sonda Şura iclasında qeyd olunan təkliflər və qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar və Azərbaycan Respublikasının Prezidentinə müraciət qəbul olundu.

# LƏRMƏRUD KƏNDİNDƏ VƏTƏNDAŞLARLA SƏYYAR GÖRÜŞ-QƏBUL



**Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov Lərmərud kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirdi. Görüş iştirakçılarına bildirildi ki, ərazilərdə, kəndlərdə vətəndaşlarla görüşlər ölkə başçısı cənab İlham Əliyevin tapşırığı ilə əhalinin problemlərinin yerində öyrənilməsi, həll edilməsi məqsədi ilə mütəmadi olaraq keçirilir. Sizinlə belə görüşlərimiz bir neçə dəfə olmuşdur. Bu gündə qrafikə uyğun olaraq növbəti dəfə Lərmərud kəndində, sizlərlə birlikdəyik.**

RİH başçısı bildirdi ki, cənab Prezidentin rayonumuza göstərdiyi diqqət və qayğısı nəticəsində rayonumuz ildən-ilə inkişaf edir və abadlaşır. Son illər rayon mərkəzi ilə yanaşı ucqar dağ kəndlərimizdə də yeni məktəb binaları, sosial obyektlər tikilib istifadəyə verilmiş, bir neçə kəndə qaz xətti çəkilmiş, kəndlərə yolları təmir edilmiş, bir neçə kəndin yoluna asfalt döşənmişdir. 50 min əhalinin yaşadığı əraziləri birləşdirən Noda-Şingədulan-Xanəgah avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə cənab Prezidentin sərəncamı ilə 6.6 milyon manat vəsait ayrılmışdır. Artıq yolda tikinti işləri sürətlə aparılır. Bu yoldan ayrılan və sizlərin də istifadə etdiyiniz Əliabad-Gürdəsər-Vamazğon avtomobil yolunun tikintisi üçün bütün texniki sənədlər hazırlanaraq müvafiq təşkilatlara təqdim edilmişdir. Maliyyə vəsaiti ayrılacağı halda yolun tikintisinə başlanılacaqdır.



Rayonumuzun 45 kəndinə qaz xəttinin çəkilişi tam təmin olunub. Qaz çəkilişi mərhələlərlə həyata keçirilir. Hal-hazırda 4 kəndə qaz çəkilişi işi davam etdirilir. Bu ərazidən də əhali qazın çəkilməsi ilə bağlı müraciətlər edirlər. İqtisadi vəziyyət düzəldikcə Nücü ərazisinə o, cümlədən Lərmərud kəndinə də qaz xətti çəkiləcəkdir.

İşıq təsərrüfatında görülmüş işlər nəticəsində sərt keçən qışda kəndlərimizdə elektrik enerjisi verilişi ilə bağlı ciddi problemlər yaşanmadı. Rayonumuzun kəndlərində çürümüş dirəklər yeni dəmir dirəklərlə əvəz olunub, yeni transformatorlar quraşdırılıb, bir neçə kənddə yeni sip kabel xətləri çəkilmişdir. Bundan sonra da bu işlər davam edəcəkdir.

Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlardan Haftonu kənd sakini Əsədulla Bəbirov, Lərmərud kənd sakinləri Şahvəli Əliyev, Məzahir Əliyev, Azər Paşayev, Rahib Hüseynov və digərləri çıxış edərək görülən işlərə görə minnətdarlıqlarını bildirdilər. Ərazidə elektrik xətlərinin təmirinə, elektrik montyorunun təyin edilməsinə, mübahisəli pay torpaqlarının naturada göstərilməsinə, qaz xəttinin çəkilişinə, Nücü kənd avtomobil yolunun təmirinə, Haftonu kəndində yeni məktəb binasının tikilməsinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə zəruri tədbirlərin görülməsindən ötrü aidiyyəti vəzifəli şəxslərə yerində tapşırıqlar verildi.

# MDB Parlamentlərarası Assambleyanın nümayəndə heyətinin üzvləri Lerik rayonunda oldular





**"Relax" turizm və istirahət mərkəzində keçiriləcək "Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın iştirakçısı olan dövlətlərdə demokratik islahatlar: Azərbaycan Respublikasının təcrübəsi" adlı seminarın iştirakçıları Lerik şəhərində oldular. Qonaqlar öncə Azərbaycan Xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək abidənin önünə tər gül-çiçək dəstələri düzdülər.**

Seminar iştirakçıları Heydər Əliyev Mərkəzi və "Uzunömürlülər" muzeyində eksponatlar və rayonun görməli yerləri ilə tanış oldular.

Seminar iştirakçıları ilə Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov arasında rəsmi görüş keçirildi. Çay süfrəsi arxasında davam edən görüşdə rayon icra hakimiyyəti başçısı qonaqlara rayonun qədim tarixi, coğrafi mövqeyi, adət-ənənəsi, mədəniyyəti haqqında məlumat verərək, aqrar bölmənin dirçəldilməsi üçün həyata keçirilən tədbirləri qeyd etdi, rayonun turizm potensialı və son illərdə görülmüş tikinti-quruculuq işlərini diqqətə çatdırdı.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlıqlarını bildirən seminar iştirakçıları Azərbaycanda gedən sosial-iqtisadi inkişafın onlarda xoş təəssürat oyatdığını, paytaxtla yanaşı region şəhərlərində də inkişafın, müasirləşmənin getdiyini, Lerikin füsunkar təbiətinin insanda xoş əhval-ruhiyyə yaratdığını və burada olmalarından məmnun qaldıqlarını bildirdilər.

Sonda rayon icra hakimiyyəti başçısı tərəfindən qonaqlara xatirə hədiyyələri təqdim edildi.

# "MDB Parlamentlərarası Assambleyanın iştirakçısı olan dövlətlərdə demokratik islahatlar: Azərbaycan Respublikasının təcrübəsi" adlı seminar keçirildi

Milli Məclisin deputatı İqbal Məmmədovun təşəbbüsü, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi Beynəlxalq İnstitutunun Bakı filialının təşkilatçılığı ilə "Relax" turizm və istirahət mərkəzində "Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın iştirakçısı olan dövlətlərdə demokratik islahatlar: Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda seminar keçirildi.



Öncə tədbirə qatılmış qonaqlar rayonun Piran kəndi ərazisində fəaliyyət göstərən sənaye müəssisəsinə - "Lerik Broyler" quşçuluq fabrikinə baxış keçirdilər.

"Relax" turizm istirahət mərkəzində dəyirmi masa ətrafında davam edən seminarı giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov qonaqları rayonun qonaqsevər əhalisi adından salamladı, MDB PAA-nın növbəti mötəbər tədbirinin keçirilməsi üçün ucqar dağ rayonu olan Lerikin seçilməsinə görə təşkilatçılara minnətdarlığını bildirdi. Son illər xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir ki, Azərbaycan Respublikası dinamik inkişaf edir, mərkəzi şəhərlərlə yanaşı regionlarımızda sürətlə inkişaf edir.

Ümummilli lider Heydər Əliyevin sədrliyi ilə müstəqil respublikanın qəbul edilmiş ilk Konstitusiyası ilə əsası qoyulmuş demokratik, hüquqi islahatların, beynəlxalq standartlara cavab verən qanunvericilik bazasının yaradılmasının, insan hüquq və azadlıqlarının qorunmasının, gender bərabərliyinin, azad sözün, mətbuatın inkişafı, insanların sərbəst toplaşmaq azadlıqlarının və demokratik prinsiplərin qəbul edilməsinin nəticəsidir ki, bu gün dünyanın inkişaf etmiş ölkələrinin maliyyə böhranı ilə üzləşdiyi bir vaxtda Azərbaycan dinamik inkişaf edir, xarici dövlətlərdə iri layihələrin icrasına sərmayə qoyur, respublikada sabitlik və əmin-amanlıq hökm sürür.

Ümummilli liderin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi daxili və xarici siyasət bu gün onun layiqli varisi-Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Möhtərəm Prezidentin siyasi xəttinin bir neçə aspektinə diqqət yetirməklə onun Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etdirilməsinə nə kimi töhfələr verdiyini görmək olar. İlk növbədə Prezident İlham Əliyev Ulu Öndərin başladığı neft strategiyasını uğurla davam etdirdi. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin inşasının başa çatdırılması ilə Azərbaycanın bölgədəki lider mövqeyi daha da möhkəmləndirildi.

Natiq bildirdi ki, Azərbaycanın bütün regionları sürətlə inkişaf edir, sosial problemlər həll edilir və insanların rifah halı durmadan yüksəlir. Regionların belə sürətli inkişafına gedən yolun əsas başlanğıcı, heç şübhəsiz ki, Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilən «Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» ilə qoyulub. Onun davamı olaraq, dövlət başçısının 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq olunan «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» və 27 fevral 2014-cü il tarixli fərmanı ilə təsdiq edilmiş üçüncü Dövlət Proqramı isə əldə olunan nailiyyətlərin miqyasının daha da genişlənməsinə, bəzi parametrlər üzrə keyfiyyətcə yeni mərhələnin əsasının qoyulmasına gətirib çıxarıb.

Son illərdə cənab Prezidentin üç dəfə rayonumuza səfər etməsi və Lerikin inkişafına həmişə xüsusi qayğı və diqqət göstərməsinin nəticəsidir ki, dağların qoynunda hər cür müasir infrastrukturu olan bir şəhər tikilmişdir. Küçə və xiyabanlara asfalt döşənmiş, işıqlandırma sistemi yenidən qurulmuş, parklar salınmışdır. Respublika Prezidentinin 20 iyun 2008-ci il tarixli Sərəncamı ilə şəhər statusu verilmiş Lerikdə yeni infrastrukturların, kanalizasiya şəbəkəsinin yaradılması, əhalinin içməli su təchizatının yaxşılaşdırılması, dayanıqlı və sabit elektrik enerjisi ilə təmin olunması məqsədilə layihələrin icrası, modul tipli elektrik stansiyasının tikintisi həyata keçirilmişdir.

Seminarda Milli Məclisin deputatları Hadı Rəcəbli, İqbal Məmmədov və Rüfət Quliyev, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun direktoru Dimitri Qladey, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun eksperti Dimitri Barışnikov, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyanın Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun Bakı filialının direktoru Elman İmaməliyev, müstəqil ekspertlər Şikar Qasımov, Sübhan Namazov, Lerik Rayon Məhkəməsinin sədri Firdovsi Əliyev, Lerik Rayon Daxili İşlər şöbəsinin rəisi Hüseynəli Məlikov, Lerik Rayon Təhsil Şöbəsinin müdiri Balaşirin Nəsirov, Lerik bələdiyyəsinin üzvü, şəhər bir saylı texniki fənlər təmayüllü liseyin direktoru Gültəkin Şıxəliyeva, 78 saylı Dairə Seçki Komissiyasının sədri İdris Şıxəliyev çıxış edərək müxtəlif istiqamətlər üzrə həyata keçirilən demokratik islahatlar haqqında geniş məlumat verdilər.

# AZƏRBAYCANIN 23 YAŞLI MİLLİ QƏHRƏMANI VALEH MUSLÜMOV

**Azərbaycanın Əlizahir oğlu Müslümovu təkcə Lerik rayonunda yox, Azərbaycanın bir çox guşələrində Azərbaycanın Milli Qəhrəmanı kimi tanıyırlar. O, 1992-ci ilin aprelin 8-dən 9-na keçən gecə Ağdərə rayonunun Mərquşəvan kəndi uğrunda gedən döyüşdə əsl igidlik və qəhrəmanlıq göstərmişdir. Düşmənlə qeyri-bərabər döyüşdə 11 nəfər yaralı döyüşçünü xilas edərkən aldığı yaradan özü şəhid olmuşdur.**

Valeh Müslümovun anım mərasiminə Lerik Rayon İcra Hakimiyyətinin nümayəndələri, SHXÇDX şöbəsinin zabit heyəti, oxuduğu məktəbin şagird və müəllimləri, ziyalılar, qəhrəmanın yaxınları gəlmişdilər. Onlar öncə Valeh Müslümovun adını daşıyan küçədə qəhrəmanın büstü önünə təzə-tər çiçəklər düzdülər, şəhidin ruhunu yad etdilər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin rəisi, polkovnik-leytenant Fəxrəddin Mirzəliyev mərasimdə çıxış edərək dedi:

- Biz Valeh Müslümovla, onun şəhid olmuş döyüşçü dostları ilə fəxr edirik. Valeh Vətənin ən çətin günündə torpağın müdafiəsinə qalxmışdı.



Ölüm-dirim savaşında öz cəsurluğu, igidliyi, vətənə bağlılığı ilə seçilmiş, düşmənlə döyüşərkən igidlik və mərdlik nümunəsi göstərmişdir. Bu gün Valeh öz qəhrəmanlığı ilə gənclərə mübarizə dərsi öyrədir. Lerikli igidlər onun şəhidlik yolunu şərəflə davam etdirirlər. Aprel döyüşləri göstərdi ki, ordumuz daha güclənib, müasirləşib, vətən yolunda əsgərlərimiz canından keçməyə hazırdır. Lerikli gənclər, əsgərlər Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmr və tapşırıqlarını yerinə yetirməyə hər an hazırdırlar.

Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəlimməmmədova, ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Əlipənah Bayramov çıxışlarında Valeh Müslümovun Qarabağ müharibəsində göstərdiyi misilsiz şücaət və qəhrəmanlığı xüsusi olaraq qeyd etdilər.

Göstərdilər ki, Valeh Müslümovun göstərdiyi qəhrəmanlıq dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. O, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş, vaxtilə oxuduğu məktəbdə büstü qoyulmuş, xatirə muzeyi yaradılmışdır. Yaşadığı küçə onun adını daşıyır, burada V.Müslümovun büstü qoyulmuşdur. Qəhrəmanın şərəfinə idman turnirləri keçirilir. Onun haqqında kitablarda oçerklər yazılmış, plakatlar buraxılmışdır. Şəhidin ailəsi hərtərəfli qayğı ilə əhatə olunmuşdur.

Milli Qəhrəmanın atası Əlizahir Müslümov çıxış edərək şəhidə, onların ailəsinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə, oğlunun xatirəsini həmişə əziz tutan Lerik rayon rəhbərliyinə ailəsi adından minnətdarlıq ifadə etdi.

***Fədail Şükürov***

# Vətənpərvərlik ruhu məktəbdə aşılanmalıdır

## *Samirə Bağışova haqqında qısa tanıtma*

**Samirə Bağışova 2000-ci ildə Astara Pedaqoji Texnikumunun ibtidai sinif müəllimi fakültəsini uğurla bitirmişdir. Həmin ildə Lerik şəhər 2 saylı tam orta məktəbində müəllim təyin edilmişdir.**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin Lerik rayonunda keçirdiyi müasir təhsilin inkişafı üzrə "Kurikulum" və "İnformatika" texnologiyasının əsasları kurslarında yüksək nəticələr əldə edərək I dərəcəli sertifikata layiq görülmüşdür.**

**Cari tədris ilindən Samirə Bağışova Lerik şəhər 3 saylı tam orta məktəbində ibtidai sinif müəllimi kimi çalışır. Müəllim peşəsinə yaradıcılıqla, məsuliyyətlə yanaşır, şagirdlərə bilik və savad öyrətməklə yanaşı, onların vətənpərvərlik ruhunda böyüməsi üçün bilik və bacarığını, təcrübəsini əsirgəmir. Onun məqaləsini sizə təqdim edirik.**



Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması pedaqoji işçilərin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Təhsilimizin məqsədi uşaqlara təhsil verməklə yanaşı, həm də onları yetkin bir vətəndaş kimi yetişdirmək, onlara Vətənə, torpağa sədaqət, lazım gələrsə, Vətən yolunda şəhidliyə hazır olmaq ruhunu aşılamaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin vacibliyini dönə-dönə vurğulamış, bu işin dövlətin təhsil, gənclər siyasətinin əsas məsələlərindən biri olduğunu diqqətə çatdıraraq demişdir: "Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsası, hər bir xalqın inkişafının əsasıdır".

Hər kəs Vətəni sevməli, onun müqəddəsliyinin əvəzsiz olduğunu duymalıdır. Bizim ruhumuz, qanımız, qan yaddaşımız vətən eşqi ilə yoğrulmalı, çırpınmalıdır. Hər birimiz Vətənin müsəlləh əsgəri olmalıyıq. Unutmaq olmaz ki, bütün bu söylənənlər məhz orta məktəbdə övladlarımıza aşılanmalı, öyrədilməlidir.

Biz pedaqoq olaraq böyüməkdə olan nəslə aşılamalıyıq ki, vətənpərvərlik hissi insanı səciyyələndirən əsas keyfiyyətlərdən biridir. Şagirdlərimizin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, müəllimlərin vacib vəzifələrindən biridir. Müasir dövrdə təhsilin qarşısında qoyulmuş əsas vəzifələrdən biri də fəal vətənpərvər, yüksək zəkalı, fiziki-mənəvi cəhətdən sağlam vətəndaşlar yetişdirməkdir.

***Samirə Bağışova,***
***Lerik şəhər 3 saylı tam orta məktəbin müəllimi***

# PEŞƏ TƏHSİLİ HAZIRLIĞI ZAMANIN TƏLƏBİDİR

## *Aktual söhbət*

**Azərbaycan Prezidenti İlham Əliyev Saatlı rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində deyib: "Azərbaycanda peşə məktəblərinin yaradılması prosesi daha da sürətlə getməlidir". Prezident kadr hazırlığı məsələlərinin böyük əhəmiyyət daşıdığını vurğulayaraq demişdir ki, peşə məktəblərinin yaradılması prosesi daha sürətlə getməli, iqtisadiyyatın ümumi inkişafı ilə uzlaşmalıdır. Peşə hazırlığı fəaliyyət prioritetimizə uyğun olaraq aparılmalıdır.**

**Ölkə başçısı müxtəlif sahələri üzrə ixtisaslaşdırılmış peşə məktəblərinin yaradılmasına böyük ehtiyacı bu sahələrin bundan sonra da ölkədə sürətlə inkişaf edəcəyi ilə əsaslandırdı: "Kənd təsərrüfatı mütəxəssisləri, aqronomlar və bu peşələr üzrə kadrlar hazırlanmalıdır. Biz gəncləri bu sahəyə cəlb etməliyik".**

**Prezidenti İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanı ilə Təhsil Nazirliyi yanında peşə təhsili üzrə Dövlət Agentliyinin yaradılması bu sahənin ölkə iqtisadiyyatının inkişafı üçün böyük önəm daşıdığından xəbər verir.**

Gəlin görək Lerik şəhərində peşə təhsilinin vəziyyəti, bu sahədə həlli vacib olan problemləri həll etmək olarmı?

Bu və digər suallarla Lerik Peşə Məktəbinin direktor əvəzi Namiq Bağışova müraciət etdik.

**- Namiq müəllim, Lerik Peşə məktəbində kadr hazırlığı sizi qane edirmi?**

- Peşə məktəbimiz yarandığı





vaxtdan bəri müxtəlif çeşidli ixtisaslar üzrə kadrlar hazırlayır. Bu kadrlar rayonun iqtisadiyyatının inkişafında böyük önəm daşıyır. Şübhəsiz ki, pis peşə yoxdur, pis sənətkar vardır. 80-ci illərdə məktəbimizin Singədulan kəndində filialı fəaliyyət göstərirdi. Əsasən üzüm ustası, mexanizator və operator hazırlayırdı. Sonralar nəinki bu filial bağlandı, hətta Peşə Məktəbində kadr hazırlığı məhdudlaşdırıldı. Hazırda məktəbimizdə xalçaçı, tikiş və tikiş avadanlıqları operatoru, elektrik avadanlıqlarının operatoru, elektrik montyoru ixtisasları üzrə peşə hazırlığı qrupları fəaliyyət göstərir. Əlbəttə, bu bizi razı salmır. Traktorçu-maşinist, arıçılıq, tərəvəzçilik, qaynaqçı, rəngsaz, suvaqçı, turizm müəssisələrinin xidmətçiləri, baytarlıq xidmətçisi ixtisasları üzrə ixtisaslı peşə təhsili ustaların fəaliyyət göstərərsə, bu, indiki dövrün tələblərinə, ölkə rəhbərliyinin qəbul etdiyi Fərman və qərarlara uyğundur. Gəlin bir daha etiraf edək ki, peşə təhsilinə ögey münasibətin acı nəticələri özünü göstərir və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu sahəyə diqqət artırılmalıdır.

**- Hansı problemlərlə üzləşirsiniz?**

- Bizim üzləşdiyimiz problemlər uzun illərdir ki, öz müsbət həllini tapmır. Dəfələrlə müraciətlər edilsə də, peşə təhsilinə, bu sahədə məktəbin maddi bazasının möhkəmləndirilməsinə kömək etmək əvəzinə geriləmə, laqeydlik davam edir. Hətta, ötən il ixtisas qruplarının sayının 12-dən 3-ə endirilməsi acı təəssüf doğurur. Kadr hazırlığının keyfiyyət və kəmiyyəti təkmilləşdirilməli, peşə kadrları əmək bazarına uyğunlaşdırılmalıdır.

Peşə məktəbimiz 40-cı illərdə tikilmişdir. İki binadan ibarətdir. Hər iki binanın əsaslı təmirə və ya yenidən tikilməsinə ehtiyacı var. Köhnə binalar müsir tələbata cavab vermir. Peşə məktəbi üçün təcrübə məqsədilə torpaq sahəsi yoxdur.

**- Artıq respublikada 13 ilk Dövlət Peşə Təhsili Mərkəzi yaradılıb. Yaxın gələcəkdə regionlarda bu istiqamətdə işlər davam etdiriləcək. Bu yeniliyə münasibətiniz necədir?**

- Əlbəttə, hər bir yenilik, xüsusilə də peşə təhsili istiqamətindəki yeniliklər alqışlanmalıdır. Bu, ilk növbədə kadr hazırlığını müasirləşdirəcək, peşə təhsili və təlimi müəssisələrində mühəndis-pedaqoji heyətin hazırlığını sürətləndirəcək, işəgötürənlərin tələbatına uyğun kadr hazırlığını təmin edəcək. Bu, əmək bazarının tələbatının daha dolğun ödənilməsinin başlıca şərtidir.

Azərbaycan Prezidenti İlham Əliyev peşə təhsili və təlimi sahəsindəki mühüm vəzifələrin həllinə xüsusi diqqət yetirir. Bu məqsədlə dünyada mövcud meyillər nəzərə alınmaqla, ölkəmizdə əmək bazarının tələblərinə uyğun ixtisaslı kadr hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi sahəsində ölkə prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanıb. Strateji Yol Xəritəsində bir sıra problemlərin həlli nəzərdə tutulub. "Peşə Təhsili Haqqında" Qanun layihəsinin hazırlanması üzrə Milli Məclisdə bir çox deputatların və müvafiq strukturların nümayəndələrindən ibarət işçi qrupu yaradılıb.

***İdris Şükürlü***

ƏLƏKBƏR KƏRİMOV

# Uğurlu inkişaf yolunda

**Ələkbər Kərimov orta məktəbi bitirdikdən sonra Lənkəran Kənd Təsərrüfatı Texnikumunda oxumuşdur. O, üzümçülük briqadiri, sovxoz həmkarlar təşkilatının sədri işləmişdir. İstehsalatda çalışmaqla Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.**

**Ələkbər Kərimov 1998-ci ildən Lənkəran Regional Ekologiya İdarəsinin Lerik rayonu üzrə müfəttişi işləmişdir. 2002-ci ildən Mulalan kənd ərazi i\cra nümayəndəsi vəzifəsinə irəli çəkilmişdir.**

**Hər bir iş sahəsində çalışarkən böyük hörmət və nüfuz qazanan, ictimai işlərdə fərqlənən Ə.Kərimov "İgidliyə görə" medalı ilə və digər mükafatlarla təltif edilmişdir.**

**Qəzetimizin oxucularına Ələkbər Kərimovun "Uğurlu inkişaf yolunda" yazısını təqdim edirik.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasət ölkəmizi getdikcə dünyada tanıdır, onun artan nüfuzunu möhkəmləndirir, Azərbaycan bir sıra dünya səviyyəli irimiqyaslı tədbirlərə ev sahibliyi edir. Digər tərəfdən də həyata keçirilən irimiqyaslı layihələr öz bəhrəsini verir, iqtisadiyyatımız artan templə inkişaf edir, qeyri-neft sektorunun inkişaf etdirilməsinə xüsusi önəm verilir. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir ki, birinci rübdə ölkəmiz uğurla inkişaf edib, bizim bütün proqnozlarımız həyatda öz əksini tapır. Həmin iclasda Prezident İlham Əliyev kənd təsərrüfatının inkişaf etdirilməsini hər bir



region, istehsal sahəsi, fermer və əkinçilər qarşısında mühüm vəzifə kimi qarşıya qoymuşdur. Uzun illər diqqətdən kənarda qalmış ənənəvi əkin sahələri inkişaf etdirilir, sahibkarlar üçün yaxşı şərait yaradılır. Sevindirici haldır ki, kəndlərimizin iqtisadiyyatının əsasını təşkil edən əkinçilik və heyvandarlığın inkişaf etdirilməsinə diqqət artıb.

Biz həlli vacib olan məsələlərdən hesabat yığıncağında geniş müzakirə aparmışıq. Əlbəttə, rəy və təkliflər nəzərə alınmışdır. Mövcud kənd təsərrüfatı texnikasının azlığı, əkinçiliyə hazırkı münasibət, meşələrin qorunması, gənclərin kənddən uzaqlaşması, elektrik xətlərinin uzun illər təmirsiz qalması və s. məsələlər bizi narahat edir. İş təkcə nöqsanı göstərməklə bitmir, həllinə nail olmaq vacibdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüş zamanı diqqətə çatdırıb ki, aprel döyüşləri bizim şanlı qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir: "Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir". Bəli, ölkəmiz işğal faktoru ilə heç vaxt barışmayacaq və ərazi bütövlüyünü gec-tez bərpa edəcək. Aprel döyüşləri Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yeni vəziyyətin yaranmasının səsləndirdi. Bütövlükdə, aprel döyüşləri Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək gücündə olduğunu göstərdi. Aprel döyüşləri Ermənistan təbliğat maşınının Ermənistan ordusunun gücü haqqında formalaşdırdığı mifi dağıtdı, bu kimi iddiaların heç bir əsası olmadığını göstərdi. Ermənistanın yeganə çıxış yolu işğalçılıq siyasətindən əl çəkməsidir. İstər kəndlərimizin əhalisi, istərsə də əsgərliyə yollanan gənclər bu fikirdədirlər, sabaha inamla, qələbə ilə baxırlar. Onlar ordumuzun gücünə inanırlar.

Yekun olaraq demək yerinə düşər ki, respublika iqtisadiyyatının qeyri-neft sektoru birinci rübdə 2,4 faiz artıb, qeyri-neft sənayemizin artımı 2 faiz səviyyəsində olub, kənd təsərrüfatı 3,5 faiz artmışdır. Bu isə nikbinliyə əsas verir. Nikbinlik varsa, sabaha inam var.

***Ələkbər Kərimov,***
***Mulalan kənd ərazi icra nümayəndəsi***

# QARTAL KİMİ VÜQARLI...

**Artıq aprel döyüşlərində bir il ötür. Ancaq əsgərlərimizin qazandığı tarixi qələbə unudulmur, dönə-dönə xatırlanır, şəhidlərimizin xatirəsi ehtiramla yad edilir.**

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin rəisi, polkovnik-leytenant Fəxrəddin Mirzəliyev aprel döyüşlərindən bir il ötsə də, onun yaratdığı yüksək əhval-ruhiyyənin, qələbəyə köklənən döyüş ruhunun davam etdiyindən həvəslə söhbət açdı:

- Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprel döyüşlərinin əhəmiyyətindən danışarkən demişdir ki, bu döyüşlər bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən şücaətdir. Bu döyüşlər onu göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək.

Rayonumuzda hərbi vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə olmasının göstəricisidir ki, gənclərimiz ordu sıralarında xidmətə, vətən qarşısındakı borclarını verməyə həvəslə, ruh yüksəkliyi ilə gedirlər. Onların ordu sıralarına yola salınmasına həsr edilən mərasim el şənliyinə çevrilir.



SHXÇDX Lerik rayon şöbəsinin müfəttişi İlqar Mirələmov bizi çağırışçı gənclərlə tanış edir. Novruz Hüseynov əsgərliyə yola düşür. Onun qardaşı Natiq isə ordu sıralarından yenicə tərxis olunub. Seyfəddin Qasımov ailənin 4-cü oğludur ki, əsgəri borcunu yerinə yetirməyə gedir. Alqayıt Hüseynov isə ailənin on övladından 5-cisidir ki, Vətən qarşısında borcunu yerinə yetirməyə gedir.

Onlar ordu sıralarına yola düşərkən demişlər ki, vətən qarşısındakı borcu yerinə yetirməkdən qürur duyuruq. Bu, bizim şərəf işimizdir. Biz anamızı sevdiyimiz qədər doğma vətənimizi də sevirik. Biz hərbi xidmətə ona görə gedirik ki, düşməndən qisas alaq, torpaqlarımızı azad edək.

Fəxrəddin Mirzəliyev deyir:

- 2016-cı ildəki aprel döyüşləri Milli Ordumuzun gücünü, qüdrətini bir daha nümayiş etdirdi, düşmənə sarsıdıcı zərbələr endirildi. Ermənilər ağır itkilər verərək, geri çəkilmək məcburiyyətində qaldılar. Əsgəri xidmətdə olan hərbçilərimiz hər an hazır olmalıdırlar ki, doğma torpaqlarımızı azad edək. Ordumuz hər an hazır olmalıdır ki, qarşıda duran bütün vəzifələri yerinə yetirsin, torpaqlarımızı azad etsin.

Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərahi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək.

*"Lerik"*

# Təbrik edirik!

**Bu günlərdə Lerik rayonunun Günəşli kəndində boya-başa çatmış Mirağa Cəfərquliyev "İlin alimi" media mükafatına layiq görülmüşdür**




"Qanun" jurnalının baş redaktoru, AMEA Hüquq və İnsan Haqları İstitutunun Baş elmi işçisi, hüquq üzrə elmlər doktoru, professor, istefada olan ədliyyə general mayoru, sözün həqiqi mənasında böyük müəllim, hüquq elminin ağsaqqallarından biri Mirağa Əşrəf oğlu Cəfərquliyev Azərbaycan Kütləvi İnformasiya Vasitələri işçiləri Həmkarlar İttifaqı tərəfindən keçirilmiş rəy sorğusuna görə elm adamı olaraq, ümummilli lider Heydər Əliyev ideyalarının həyata keçirilməsi uğrunda fəaliyyəti, Vətənə və xalqa layiqli xidmətlərinə görə "İlin alimi" Ali Media mükafatına layiq görülmüşdür. Bu yüksək mükafat alması münasibəti ilə biz də Mirağa müəllimi təbrik edir, ona cansağlığı, elmi və ictimai fəaliyyətində yeni-yeni uğurlar arzu edirik. Mirağa müəllim, qoy Vətən qarşısındakı xidmətləriniz, alim ziyanız, ağsaqqalığınız, xeyirxahlığınız başqalarına həmişə nümunə olsun!

# BU, BİZİM HƏYAT TƏRZİMİZDİR



***AZƏR HƏSƏNOV,***
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi*

**Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konvensiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət və xalqımızın tarixlər boyu bu dəyərlərə verdiyi önəmin, insanpərvər və sülhsevər siyasətin nəticəsidir ki, ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir.**

Dövlətimiz, xüsusi ilə dövlət başçısı tərəfindən həm İslam dininə, həm də digər dünyəvi dinlərə xidmət edən dini ibadət yerlərinin, müxtəlif mədəniyyətlərin nümunəsi olan tarixi-dini abidələrin təmirinə, tikintisinə göstərdiyi diqqət bütün insanlar tərəfindən rəğbətlə qarşılanır.

Yola saldığımız 2016-cı ilin Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Multikulturalizm ili" elan etməsi müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq və birgə yaşayış prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir.

Multikultural və tolerant dəyərlər ümumbəşəri xarakter daşıyır. Ziyalılarımız, din xadimlərimiz cəmiyyətimizdə həm etnoslar, həm də dinlərarası tolerant münasibətlərin inkişafı üçün çalışmalıdır. İslam dünyasının bir parçası olaraq Azərbaycan milli-mənəvi dəyərlərini və xalqımıza məxsus xüsusiyyətləri qoruyub saxlayır. Xalqımızın tarixdən gələn bu xüsusiyyətlərini gələcək nəsillər də yaşatmalıdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı daha da sürətlənib. Azərbaycan dünyaya inteqrasiya edən ölkədir, amma bununla yanaşı, biz öz milli-mənəvi dəyərlərimizi də qoruyuruq.

Respublikamız dinlərin və mədəniyyətlərin birgə fəaliyyətinə, tolerantlığa əyani nümunədir. Məhz bu qayğı və diqqətin nəticəsidir ki, respublikasında olduğu kimi, rayonumuzda da dini sabitlik hökm sürür.

Qədim tarixə və tarixi-dini adət ənənələrə malik olan rayonumuzda



dini məzhəb ayrı-seçkiliyi, birgə yaşayan xalqlar və etnoslar arasında heç bir milli problem yaşanmamışdır. 2016-cı ildə rayon ərazisində fəaliyyət göstərən 96 məsciddən 7-də dini icma Dövlət Komitəsində qeydiyyata alınmış və rayon üzrə dini icmaların sayı 21-ə çatmışdır. Daha 4 dini icmanın sənədləri Dövlət Komitəsinə təqdim olunmuşdur.

Ötən illərdə olduğu kimi 2016-cı ildə də rayon üzrə dini durumun öyrənilməsi, dövlətin din sahəsindəki qəbul etdiyi qanun və qərarların yerlərdə təbliğ edilməsi, dini icmaların qeydiyyatdan keçirilməsi və onların fəaliyyəti, radikal sekta və təriqətlərin bölgədəki fəaliyyətinin aşkarlanaraq zərərsizləşdirilməsi, dini obyektlərin inşası, dini tədris ocaqlarının və ya dini kitabların öyrənmə kurslarının fəaliyyəti, qadağan olunmuş dini ədəbiyyatların yayılmasına nəzarət, əlamətdar dini mərasimlər və dini bayramlarla bağlı məscidlərdə keçirilən tədbirlərə nəzarət edilməsi və cümə günləri məscidlərdə təşkil olunan namazlarda monitorinqlərin keçirilməsi diqqətdə saxlanılmışdır.

"Multikulturalizm ili" ilə əlaqədar rayonda dini icmaların sədrləri, din xadimlərinin, ictimaiyyətin nümayəndələrinin, xüsusilə də gənclərin iştirakı ilə 23 silsilə tədbir keçirilmişdir.

Bu tədbirlər Lerik rayon İcra Hakimiyyətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, həm də müvafiq dövlət orqanları, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, eləcə də Qeyri-hökumət təşkilatlarının birgə təşkilatçılığı və iştirakı ilə reallaşdırılmışdır.

"Multikulturalizm ili" ilə bağlı keçirilən tədbirlərdə Azərbaycanda multikultural ənənələrin və tolerantlığın tarixi köklərindən bəhs edilmiş, ölkəmizdə yaşayan bütün xalqlara eyni və səmimi münasibət bəsləndiyi vurğulanmış, multikulturalizm Azərbaycan modelinin bütün dünyada təqdir olunduğu diqqətə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara ayrılan maliyyə vəsaiti və Dini qurumlarla iş üzrə Dövlət komitəsinin dəstəyi ilə Lerik Rayon Gürdəsər kənd məscidi dini icmasında 20 mart 2016-cı il tarixdən 3 ay müddətinə "Dini Radikalizmə qarşı mübarizə yolları və milli mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində maarifləndirici tədbirlər keçirilmiş. Layihənin həyata keçirildiyi dövr ərzində "Multikultural və tolerant dəyərlərimiz", "Din və dövlət münasibətləri", "Radikalizmə qarşı mübarizə yolları", "Dini Radikalizm və onun fəsadları" və sair mövzular üzrə maarifləndirici, tədbirlər, seminarlar təşkil olunmuşdur.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq təşkilatına, İSESKO və həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək, İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan Şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunması öz ifadəsini tapmışdır.

IV İslam həmrəylik oyunlarının Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəyliyinin möhkəmlənməsi sayəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratmışdır.

Dövlət başçısı İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" və onun məntiqi davamı kimi 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməsi, bütün dünyaya, bir-birimizə qarşı dözümlü olaq, hörmətlə yanaşaq, həmrəy olmağı, dinlər və məzhəblər arasında dialoq qurmağı bacarağa çağırışıdır. İnanırıq ki, "İslam həmrəyliyi ili" təkcə Azərbaycanda deyil bütün İslam aləmində sülhün, əminəmanlığın, həmrəyliyin yaranmasında və möhkəmlənməsində mühüm rol oynayacaqdır.

# Nağıl kimi bir ömür



**Deyirlər, nağıl dili yüyrək olur. Sənin ömrün nə tez ötüb keçdi, dayımın əziz oğlu, el-obanın sevimlisi!**

Ha çalışıram fikrimi yayındırım, sənin nurlu siman gəlir gözlərimin önünə. Təkcə mənimmi? Yox, bu tezlikdə gedişin ağrıtdı bizi. Hələ 55-ci yaşına təzəcə qədəm qoymuşdun. Sənin parlaq arzuların qabaqdaydı. Bir qız, bir oğul sənin toy xeyir-duanı görmüşdü. İki övladın da evləndirməyə macal tapmamışdı. Dörd nəvən qol-qanadların idi. Onları görməyəndə darıxırdın, xatırlayıb gülümsəyirdin. Doğrudanmı nəvə bu qədər şirin olur? İndi onları sənin yerində kim oxşayıb əzizləyəcək? Sən getdin. Yerin boş qalmadı. Övladların, doğmaların sözündə, söhbətində, əməllərində, həyatında yaşayırsan, xatırlanısan. Şair demişkən:

**Gözdən göz yaşı axan tək,**
**Dünyadan axıb gedirik.**
**Doğmaların, yaxınların,**
**Ömrünə yağıb gedirik.**

Eldarın cismən həyatdan getməsi xəbəri – insafsız qara xəbər Şəmsiəli dayımın ocağını, qapısını nə tez döydü? Kəndlərə, yaxında, uzaqda yaşayan qohumlara xəbər çatan kimi, onlar Murya kəndinə gəldilər. Şəmsiəli dayımın, onun Gültamam anasına, Eldarın övladlarına, qohum-əqrəbaya, dostlara təskinlik vermək, başsağlığı vermək üçün

Eldarın əli ilə əkdiyi ağaclara, nəfəsinin həniri, zəhmət ətri hopub torpağa. Mən düşünürəm ki, onun qəlbinin həniri, qəlbinin odu doğma ocaqların közündə qalıb. Qəfil xəzan küləyi vaxtsız əssə də, taleyin qismətindən qaçmaq mümkün olmayıb. Kövşənlər, dağlar, dərələr, buz bulaqlar onun yolunu gözləyir. Getdiyi dar cığırlardan Eldarın uşaqlıq illərinin ətri, qoxusu gəlir. Bəlkə də ən çox Eldarın bizi vaxtsız tərk etməsi ağsaqqal atası Şəmsiəli dayıya daha çox təsir edib. Eldarlı günlərə qayıdarkən şairin misraları yadıma düşür:

Ömrümə düşən qar dərdin qarıdı,
Çəkdiyim ahlardan göylər ağırdı.
Ümidim qocaldı, səbrim qarıdı,
Hay ver harayıma, hardasan, oğul?!

Eh, gedənin qədrini sonradan bilirik. Heyhat, əlimizdən bir şey gəlmir. Yazılmamış qanunlar öz işini görür. Xatırlayırıq, elə hey xatırlayırıq...

2005-ci ilə qədər müxtəlif vəzifələrdə çalışıb Eldar. 2005-ci ildən Livədirgə ərazi icra nümayəndəsinin müavini işləyib. 2017-ci ilin 13 martında əbədi olaraq bizi tərk etdi Eldar.

*İzinə üzünü qoyduğu torpaq,*
*Eldara söylədi kim olduğunu.*
*Belədir, belədir dünyanın sonu.*

**Əliabbas Məlikov**



# Suyu sovulmuş dəyirmanlar

**Hamaratın təbiəti füsunkardır, görənləri valeh edir. Kəndin həyatına bərəkət qatan mənbələrdən biri də qayalardan süzülüb gələn Ləkər çayıdır. Bu çay kəndin yanından axıb gedir. Vaxtilə çayın kənarında kəndin öz dəyirmanı olub. Ağsaqqalların dediyinə görə, İkinci Dünya müharibəsi dövründə o dəyirman çoxlarının karına gəlib.**

Sonralar dəyirman unudulub. Amma 1985-ci ildə yenidən bərpa olunub və hər gün taxıl üyüdülüb bu dəyirmanda. Hamarat, Daster, Dzdipok və Bradililər dəyirmanın gecə-gündüz işləməsi sayəsində yır sarıdan korluq çəkməyiblər. Beləcə, Allahın suyu və torpağı kəndlinin də



zəhməti hesabına dəyirman 2003-cü ilə kimi işləyib.

Kəndli indi də taxılı istehsal edir. Həm də məhsul bol olur. Ancaq dəyirman dağılıb, yerində yalnız qalıqları gözə dəyir. Halbuki indiki dövrdə də su dəyirmanına ehtiyac var. Hamaratda, eləcə də ətraf dağ kəndlərində hər kəs öz pay torpağında taxıl əkir. Yığılan məhsulu, taxılı üyütmək üçün insanlar 50 kilometr yol qət etməli olurlar. Bu, təbii ki, əlavə xərc, əziyyət deməkdir. Həm də nəzərə almaq lazımdır ki, boranda-qarda, yağışlı havada dağ yolları ilə yük daşımaq daha da çətinləşir. Belə olan təqdirdə kəndin su dəyirmanını bərpa etmək olmazmı?

***Zəfər Əliyev,***
***Bradi kənd sakini***

# "Yeni Titanik"lə kruizə

**1912-ci ildə bataraq 1514 nəfərə məzar olan "Titanik" gəmisinin oxşarı 2018-ci ildə ilk səfərinə çıxacaq. Bu barədə kruiz gəmisinin tikintisini maliyyələşdirən avstraliyalı iş adamı Klaym Palmer xəbər verib.**

Məlumatlara görə, "Titanik II" vaxtilə Atlantik okeanın sularına qərq olmuş gəminin eynisi deyil, ondan daha geniş və uzundur. Əslindən fərqli olaraq, "Titanik II"də canqurtaran qayıqların sayı da daha çox olacaq.

Yeni kruiz gəmisinin 2400 nəfərə qədər sərnişin qəbul etmək imkanının olacağı bildirilir. Sərnişinlərin ixtiyarına müxtəlif səviyyəli 840



kayuta veriləcək.

Yeni "Titanik"in debüt reysi də sələfindən fərqlənəcək: gəmi bu dəfə Southemptondan Nyu-Yorka yox, Çinin Syansu şəhərindən Dubaya yollanacaq.

Gəminin rəhbərliyi bildirir ki, artıq bəzi müştərilər "Titanik II"nin debüt reysinə düşmək üçün 925 min ABŞ dollarını ödəməyə hazırdırlar.

# Elektron qaimənin tətbiqi vergi ödəyicilərinin mənafeyinə xidmət edir

**Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanovun müsahibəsi**

- Nicat müəllim, 2017-ci il aprelin 1-dən ölkəmizdə elektron qaimə-faktura tətbiq edilir. Bu sahədə görüşmüş işlərin xülasəsi nədən ibarətdir?

- 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, sahibkarlar arasındakı münasibətlərin tam hüquqi şəkildə tənzimlənməsi, onların bir-birlərinə təqdim etdikləri mallara (işlərə və xidmətlərə) görə qaimələrin elektron qaydada təqdim olunmasına dair öhdəliklər müəyyənləşib. Əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən elektron qaimə-faktura tətbiq edilir.

Artıq Nazirlər Kabineti «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları»nı təsdiqləyib. Qaydalara əsasən, Azərbaycanda elektron qaimə-fakturanın təsdiq edilmiş forma və rekvizitlərə uyğun olaraq mərkəzləşdirilmiş qaydada uçotunun aparılmasını və tətbiqini Vergilər Nazirliyi həyata keçirilir. Vergilər Nazirliyinə elektron qaimə-fakturanın tətbiqi ilə əlaqədar müvafiq texniki imkanların yaradılmasını təmin edən tədbirlərin görülməsi tapşırılmışdı.

Qeyd edim iki, elektron qaimə-fakturanın tətbiqi ilə bağlı vergi ödəyiciləri kifayət qədər məlumatlandırılıb, qaranlıq qalan bütün məsələlər onlara izah olunub. Texniki prosedurlarla bağlı heç bir problem yoxdur.

- Oxucuları, xüsusilə sahibkarları maraqlandıran əsas məsələlərdən biri elektron qaimə-fakturanın təyinatı ilə bağlıdır: bu nə üçün lazımdır?

- İndiyə qədər sahibkarlıq subyektləri arasında əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturaların kağız formasından istifadə olunurdu. Bu da əksər hallarda vergidən yayınma hallarına şərait yaratmaqla yanaşı, inzibatçılıq xərclərinin artmasına, əlavə vaxt sərfiyyatına səbəb olurdu. Bu sistem təkcə vergi sahəsi ilə məhdudlaşmır, hazırda maliyyə, bank sferasının elektron mühasibatlıq sistemləri yeni əsaslar üzərində qurulur, ödəniş sistemlərində dəyişikliklər baş verir, digər sahələrdə hesablaşmaların strukturu təkmilləşdirilir. Bütün bu amillər hüquqi çərçivədə də dəyişiklikləri və e-qaimənin tətbiqini labüd edir. Məhz bu baxımdan, e-qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınması, məlumat mübadiləsinin çevikliyinin artırılması və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Bu əməliyyatların şəffaflaşdırılması, rəsmiləşmə prosedurunun sadələşdirilməsi, operativliyin təmin edilməsi, inzibatçılıq xərclərinin azaldılması və sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaları məqsədilə Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Məcəlləyə «Elektron qaimə-fakturalar» adlı 71-1-ci maddə və 16.1.11-6-cı və 16.1.11-7-ci maddələr əlavə olunub.

Digər tərəfdən, gəlir və xərclərin, həmçinin vergitutma obyektlərinin uçotunun aparılmaması vergidən yayınmaya gətirib çıxarır. Ümumiyyətlə, ölkə ərazisində malların sənədsiz satılması qanuna ziddir.

- Elektron qaimənin tətbiqindən gözlənilən nəticələr nədir?

- Bu addımın atılması vergi ödəyicilərinin özləri üçün əhəmiyyətlidir. Ən böyük üstünlük qaimə-fakturaların mətbəələrdə sifariş edilməsi və hazırlanması ilə əlaqədar xərclərin və vaxt itkisinin azaldılmasıdır. Elektron qaimənin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən, əlavə vaxt itkisinə yol vermədən, birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək olar. Bunlar isə vergi ödəyicisinin əməliyyatlarının şəffaflaşmasına şərait yaradacaq və nəticədə vergi orqanı tərəfindən bu əməliyyatların real vaxt rejimində görmək imkanı olduğundan, həmin vergi ödəyicilərində nəzarət tədbirlərinin azalmasına səbəb olacaqdır.

Qeyd edim ki, Vergilər Nazirliyi ilk dəfə olaraq 2010-cu ildə ƏDV ödəyiciləri üçün e-fakturanın tətbiqinə başlayıb və nəticə uğurlu olub.

- Sirr deyil ki, öz qanuni öhdəliklərinə məsuliyyətsiz yanaşan, qaimə-fakturalara lazımınca əhəmiyyət verməyən vergi ödəyiciləri də var. Onları nə gözləyir?

- Vergi orqanları tərəfindən tətbiq olunan cərimələrin azaldılmasından sui-istifadə edərək e-qaimə-fakturaya etinasız yanaşan sahibkarlar sanksiyalara məruz qalmayacaqlarını düşünməməlidirlər. Çünki qanunla müəyyən edilmiş öhdəliklərə riayət olunmamasına görə cərimə və sanksiyalar öz qüvvəsində qalır və layihədə e-qaimənin tətbiqindən yayınan sahibkarlar üçün cəza mexanizmi nəzərdə tutulub.

Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcı təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə üzləşəcək.

# “Şahin” hərbi-idman oyununun rayon mərhələsi başa çatmışdır

Lerik Rayon Gənclər və İdman İdarəsinin rəhbərliyi və təşkilatçılığı ilə rayon Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsi, FH-nin Lerik Rayon Şöbəsi, QMƏVŞA İB Lerik rayon filialı və digər təşkilatların nümayəndələrinin iştirakı ilə ”ŞAHİN” hərbi-idman oyununun Lerik rayon mərhələsi keçirilmişdir. Tədbirdə Ümumtəhsil məktəblərinin 10 komandası qalib adı uğrunda mübarizə aparmışdır. Yarışda Vizəzəmin kənd tam orta məktəbinin “Şahin”ləri 1-ci yeri tutaraq Lerik rayonunu zona mərhələsində təmsil etmək hüququ qazanmışlar. 2-ci yeri Lerik şəhəri 1 saylı texniki fənlər təmayüllü liseyin şagirdləri, 3-cü yeri isə Günəşli kənd tam orta məktəbinin komandası tutmuşdur. Qaliblərə idarənin Kubok və Diplomları təqdim olunmuşdur.

## GƏNCLƏR ARASINDA “NƏ? HARADA? NƏ ZAMAN?” İNTELLEKTUAL OYUNU YEKUNLAŞDI

Lerik şəhər Heydər Əliyev Mərkəzində gənclər arasında “Nə? Harada? Nə zaman?” intellektual oyunun növbəti yarışması keçirilmişdir. Yarışda rayon gənclərindən ibarət 8 komanda mübarizə aparmışdır. 24 sualın oynanıldığı və 2 mərhələ üzrə keçirilən intellektual oyunda LTD komandası 1-ci, “Qartal” komandası 2-ci, “Qoca qurdlar” komandası isə 3-cü yeri tutmuşlar. Qaliblərə Lerik Rayon Gənclər və İdman İdarəsinin diplom və kubokları təqdim olunmuşdur.

### QORUYAQ TƏBİƏTİ

İnsanlar, təbiət çağırır sizi,
Vaxtında göstərin köməyinizi.
Yaşadın, qoruyun nemətinizi,
Yaşadın təbiəti, yaşatsın sizi.

Bu torpaq, bu sərvət xəzinənizdir,
Dənizlər, okeanlar sərvətinizdir.
Yeni sıx meşələr, əməyinizdir,
Yaşadın, qoruyun saf təbiəti.

Kainat həyatdır, anadır bizə,
Gəlin sahib duraq əqidəmizə.
Çirkab axıtmayaq çaya, dənizə,
Tüstü buraxmayaq göylərimizə.

Bəsdir, özümüzü biz aldatmayaq,
Harda oldu, gəldi zibil atmayaq.
Saf, təmiz havaya zəhər qatmayaq,
Qoruyaq dünyanı iki göz kimi.

Daim sahib olaq sərvətimizə,
Əvəzsiz ömürdür meşələr bizə.
Balta çalmayaq biz ömrümüzə,
Bu günə, sabaha, gənc nəslimizə.

Tükənməz xəzinədir təbiət bizə,
Yeni meşə salaq təpəyə, düzə.
Qənim kəsilməyək biz ömrümüzə,
Qoruyaq, yaşadaq biz təbiəti.

### SEVGİ QOCALMIR

Tanrı bir arzumu kaş eşidəydi,
Ax, o keçən günlər geri dönəydi.
Ömür də fəsillər tək təzələnəydi,
Yenə dayanaydım sənlə üz-üzə.

Qəlbimdə dərdləşdim, mən yavaş-yavaş,
O zərif saçını oxşadaydım kaş.
Cahanda rəqibə dönməyəydi yaş,
Göz-gözə baxdığım anlar olaydı.

Qəlbimdə yurd saldın çiçəkli ayda,
Hörüyün oxşatdım o gözəl ayda.
Sənsiz yaşamaqdan mənə nə fayda,
Üz-üzə baxdığım anlar olaydı.

Ömür keçir, gedir, daimi qalmır,
İnsan qocalsa da, sevgi qocalmır.
Ürəyim kimsəyə meylini salmır,
Qəlbimdə yaşayır saf məhəbbətin.

Qəlbinin odudur qəlbimdə yanır,
Sənsiz ayrılıqdan hey alovlanır.
Gözüm axtarışda, yollar uzanır,
Gəl, dustaq eyləmə saf məhəbbəti.

Dünyada ömrümüz getməsin boşa,
Bir-iki göz kimi yaşayaq qoşa.
Sevgidə qısqanclıq bəladır başa,
Həyat qocalsa da, sevgi qocalmır.

### ÖZÜMƏ QAYTAR

Mələk baxışınla könlümü aldın,
Sən məni Məcnun tək çöllərə saldın.
Kənardan Leyli tək seyrimə daldın,
Aldadan qəlbimi özümə qaytar.

Saf ruhum, nəfəsim qoy səndə qalsın,
Qoy sənin yoluna şəfəqlər saçılsın.
Saf, təmiz eşqimə qəlbini açsın,
İncidən qəlbimi özümə qaytar.

Könlümü yandırdın, közü qalıbdır,
Qarşında sevənin özü qalıbdır.
Əlində əlimin izi qalıbdır,
Əlimin izini özümə qaytar.

Bəsdir, sən qəlbimi yandırıb yaxdın,
Sən şirin nəğmə tək könlümə axdın.
Məyus baxışınla kənardan baxdın,
Gözümün nurunu özümə qaytar.

Demirəm arzular saralıb, solsun,
Saldığın bağçalar çiçəkli olsun.
Ən böyük səadət qismətin olsun,
Yandıran qəlbimi özümə qaytar.

*Muradəli Hüseynov,*
*Hamarat kəndi*

# “LERİK”Ə ABUNƏ OLUN

2017-ci ilin I yarımilliyi üçün “Lerik” qəzetinə abunə kampaniyası davam edir.
Əlavə məlumat almaq üçün “Mətbuatyayım”ının Lerik rayon şöbəsinə (027) 4-55-18, Lerik Post Filialına (027) 4-55-14, redaksiyamıza (027) 4-54-50 nömrəli telefonlara zəng edin.

## E L A N

**“Vergilər uşaqların gözü ilə” rəsm və inşa müsabiqəsinin keçirilməsibarədə**

Vergilər Nazirliyi 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş “Vergilər uşaqların gözü ilə” rəsm və inşa müsabiqəsini elan edir.

Müsabiqə seçmə və yekun mərhələdən ibarət olmaqla iki mərhələdə keçiriləcəkdir. Müsabiqənin qaliblərinə (1-ci, 2-ci və 3-cü yerlərə) diplom və hədiyyələr təqdim ediləcəkdir.

Rəsm müsabiqəsində 5-16 yaş, inşa müsabiqəsində isə 9-16 yaş qrupuna aid uşaqlar iştirak edə bilərlər. Müsabiqəyə qoşulmaq üçün qeyd olunan yaş qrupları üzrə uşaqlar tərəfindən çəkilmiş rəsmlər və yazılmış inşalar 2017-ci ilinmay ayının 12-dəkVergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmiş aşağıdakı ünvanlar üzrəvergi orqanı əməkdaşlarına təqdim edilməlidir:

<http://www.taxes.gov.az/modul.php?name=terminal&cat=3>

Hər iştirakçı yalnız 1 rəsm və ya inşa təqdim edə bilər. Rəsm və ya inşa təqdim edilərkən müsabiqə iştirakçısının adı, soyadı və atasının adı, yaşı, təmsil olunduğu şəhər (rayon), oxuduğu məktəb və sinif ayrıca qeyd edilməlidir.

Müsabiqədə fəal iştirak etməyinizi və müvəffəqiyyət qazanmağınızı arzu edirik!

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**




### QARDAŞ!

Ürək dayanarsa insan öləcək,
Qardaşsız bir bacı de nəyə gərək?
Necə ki, yaşadır insanı ürək,
Bizi də yaşadan sənsən, a qardaş!

Səni incitdiyim anlar da oldu,
Üzünə gəldiyim günlər də oldu.
Həyat yollarında büdrəyən zaman,
Yanımda sən kimi qardaşım oldu.

Qardaşım, canımsan, ürək paramsan,
Sən mənim damarda axan qanımsan.
Həyatda sönməyən parlaq ulduzum,
Arxa, köməyimsən varlığım, qardaş!

Saçımı oxşayıb sığallıyardın,
Hörüb saçlarımı sən darayardın.
Hər kəsdən qoruyub hər zaman bizi,
Önündə tutardın böyüyüm, qardaş!

Bacının ömrüsən, yaşam nəfəsi,
Dilindən düşməyir bir tək kəlməsi.
Ucaldır bacını qardaş sevgisi,
Bizi də ucaltsın sevgin, a qardaş!

*Nuridə Muradzadə*

### PAY OLMAZ CANDAN

*2016-cı ilin aprel ayında Milli Ordumuzun qələbəsi münasibətilə*

Apreldə əsgərlər qalxdı ayağa,
Döndü əyilməyən polada, dağa.
And içdi vətənə, ana torpağa,
Dedi, mən ölsəm də pay olmaz candan.

Düşmənlər dözmədi əsgər önündə,
Pis xəbər apardı geri dönəndə.
İgid əsgər, qələbəndir yenə də,
Dedi, mən ölsəm də pay olmaz candan.

Dardadr Qarabağ, Laçın, Kəlbəcər,
Azad edəcəkdir müzəffər əsgər.
Füzuli, Cəbrayıl, Qubadlı, Ağdam,
Yenə bizim olar, pay olmaz candan.

Çıx get torpağımdan sən qarı düşmən,
Qoy gülsün torpağım, elim olsun şən.
Məğlub olacaqdır həyasız düşmən,
Təslim imzalayar, pay olmaz candan.

*Əkrəm Xürrəmi*

### NƏ SƏNƏ QALACAQ, NƏ MƏNƏ DÜNYA

Bil ki, Süleyman qalmayan dünya,
Dərdinə bir loğman olmayan dünya.
Əzəldən al rəngdə solmayan dünya,
Nə sənə qalacaq, nə mənə dünya.

Şahlar şahlığına meydan etdilər,
Gedəndə dünyadan əliboş getdilər.
İskəndəri meysiz sərxoş etdilər,
Nə səni sayacaq, nə məni dünya.

Eşq etdi Leylini, eşqin Məcnunu,
Həsrətində boğuldu bu eşqin sonu.
Mənimtək sevsə də yüzü, milyonu,
Nə səni duyacaq, nə məni dünya.

Neçə qəhrəmanlar iz qoyub gedib,
Nizami, Nəsimi söz qoyub gedib.
Ulu peyğəmbərlər söz qoyub gedib,
Nə səni duyacaq, nə məni dünya.

Dəryalar, dənizlər başı qarlı dağ,
Dərin asimana bəzək olacaq.
Bir gün bu ömrümüz gül tək solacaq,
Nə sənin olacaq, nə mənim dünya.

Baxırsan gözəldi dağı, dərəsi,
Sərin bulaqları, gur şəlaləsi.
Bac al, xoşbəxt yaşa, ömür gedəsi,
Nə səni tutacaq, nə məni dünya.

*Ağaş Mirzəzadə*

### MORUĞUN QIRMIZI GİLƏMEYVƏLƏRİ

Təbabətdə daha çox meyvələrindən, az hallarda isə yarpaqlarından istifadə edilən moruq dərman vasitələrindən biridir, susuzluğu kəsir, dadlı və ətirlidir. Çay kimi dəmlənmiş meyvələri qədimdən soyuqdəymədə hərarətsalan vasitə kimi istifadə edilir. Moruq bağırsaqların təmizlənməsinə kömək edir, öd və sidikqovucu təsirə malikdir.

Moruq bizim eradan əvvəl IV əsrdən bitki kimi məlum olsa da, onun yetişdirilməsi ilə romalılar məşğul olub. Onu XII əsrdə Rusiyada knyaz Yuri Dolqorukinin vaxtında becərməyə başlayıblar.

Məşhur təbib Pliniy Krit adasında moruğun yabanı kollarını aşkar edəndə ona rast gəldiyi dağın şərəfinə tərcümədə təxminən qırmızı İda mənası verən ad qoyur. Məşhur botanik Karl Linney təsnifat zamanı bitkinin həmin adını saxlayıb. Qədim əfsanəyə görə, çar qızı ilahə Melissa körpəyə dayəlik edərkən moruq dərmək istəyəndə onun tikanları qollarını qanadır. Həmin vaxta qədər ağ rəngdə olan moruğun giləmeyvələri qırmızı rəngə boyanır.

Moruq tərkibində ən çox dəmir olan giləmeyvədir. Onun 100 qramının enerji dəyəri 41 kaloridir. Qlükoza və fruktoza ilə zəngin olduğuna görə ürək-damar və beyin patologiyası zamanı faydalı meyvədir. Tərkibindəki digər üzvi turşularla yanaşı külli miqdarda salisil turşusu iltihab əleyhinə və qızdırmasalıcı təsir göstərir. Fol turşusunun bolluğuna görə qanazlığı və hamiləlik zamanı da istifadə olunur. Angina və digər boğaz ağrılarında moruğun meyvələrindən hazırlanmış həlimlə qarqara edilir.

Moruğun qırmızı növündən başqa sarı və qara növləri də var. Ən az əhəmiyyətlisi sarı, ən faydalısı isə qara moruqdur, təəssüf ki, ona çox az-az hallarda rast gəlmək olur.

## ALLAH RƏHMƏT ELƏSİN

Hacı Musa Bədəlov, Qəhrəman Əliyev, İdris Şükürlü, Ələkbər Salayev, Əvəz Mirzəyev, Hüsaməddin Abbasov, Xandadaş və Akif Novruzovlar, İlkin Əliyev,

***

Xureyman Qarayevə, əzizi
**İLAHƏNİN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Lerik RİH başçısı Rövşən Bağırov və aparatın kollektivi “Respublika” qəzetinin bölgə müxbiri Əlisəfa Həsənova, qohumu
**NƏZAKƏTİN**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

İdris Şükürlü, Ağacəfər Həsənli, Gündüz Zeynalov, Ellada Səfərova, Abbas Abbasov, Mayıl Abbasov, Tərlan Bəhrəmli, Akif Bənziyevə, anası
**PƏRİŞANIN**
vəfatından kədərləndiklərini bildirir,
dərin hüznlə başsağlığı verirlər.



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və “Lerik” qəzetinin redaksiyası
Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.
Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 190 Tiraj: 400

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın “Kapital” bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935
Qəzet “Mətbuat” firmasının mətbəəsində çap edilmişdir.